# Rus pravoslavları şanlı ordumuzu dəstəkləyirlər

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz 30 ilə yaxındır işğal altında qalan torpaqlarımızı erməni faşistlərindən və əcnəbi muzdlulardan təmizləmək üçün uğurlu əks-hücum əməliyyatı həyata keçirir.



Qazandığımız qələbələri ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri də sevinclə qarşılayırlar. Etnik icmaların rəhbərlərinin imzaladığı birgə bəyanatda deyilir ki, Vətənimiz Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində hansısa qarşıdurmanın baş verməməsi düşmənlərimizi qıcıqlandırmaqla yanaşı, bizim mənəvi birliyimizin, dövlətin yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

İşğal olunmuş torpaqlarda keçirilən əks-terror əməliyyatına münasibət bildirən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının yepiskopu **Aleksandr İŞEİN** qəzetimizə müsahibəsində demişdir:

- Müxtəlif dinlərin və millətlərin nümayəndələri Azərbaycanda əzəldən bəri sülh, qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşayırlar. Ermənistanın xəyanətkar hərəkətlərindən hamımız sarsılmışıq. Ermənilər dəfələrlə ölkəmizdə yaşayan xalqların arasında ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmışdır. Lakin onlar heç vaxt niyyətlərinə nail ola bilməmişlər. Bu dəfə də etdikləri təxribatlara görə layiqli cavab alırlar.

Biz ərazilərimizi düşməndən təmizləyən Silahlı Qüvvələrimizi dəstəkləyirik. Eləcə də yürütdüyü daxili və xarici siyasətə, xalqın mənafeyi naminə göstərdiyi qətiyyətə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə təşəkkürümüzü bildiririk.

Azərbaycan torpaqlarının azad edilməsi uğrunda cəmiyyətdə hökm sürən həmrəylik, yüksək vətənpərvərlik hamımızı sevindirir.

Bu günlər Rus Pravoslav Kilsəsinin "Jen-mironosits" (Müqəddəs Mürdaşıyan Zənənlər Baş Kilsəsi) kafedral kilsəsində Azərbaycan Ordusunun qələbəsi üçün dua oxunmuşdur. Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda tezliklə möhkəm sülhün bərqərar olması üçün ibadət keçirilmişdir. Tədbir iştirakçıları öz ibadətlərində bildiriblər: "Biz Vətənimiz Azərbaycan üçün, xalqımız üçün, gecə-gündüz sülhü və təhlükəsizliyimizi qoruyan igid ordumuz üçün dua edirik. Tanrı əsgərlərimizin qəlbini cəsarət və qələbəyə inamla gücləndirsin. Torpaqlarımıza tezliklə sülhün gəlməsi üçün dua edirik. Azərbaycan Qarabağdır!"

Mən Ümummilli Lider Heydər Əliyevin "Çoxmillətlilik bizim zənginliyimizdir" sözlərini xatırlayıram və arzu edirəm ki, müharibə qələbəmizlə başa çatsın. Qoy ölkəmizdə hər kəs müxtəlif dini bayramlarını sərbəst və əmin-amanlıq şəraitində qeyd etsin. Xalqlarımız arasında birlik və qardaşlıq telləri daha da sarsılmaz olsun.

Azərbaycan.- 2020.-11 oktyabr.- S. 6.